





HADİSƏLƏR KONTEKSTİNDƏ



# Tarixi ədalət bərpa olunacaq - Qərbi Azərbaycana qayıdış prioritetdir




**Qərbi Azərbaycan soydaşlarımızın əzəli və əbədi yurdudur. Xalqımızın tarixi, mədəni irsi məhz bu torpaqlarda boy atmışdır. Minillər boyunca bu yurdun sahibi kimi burada yaşamış, öz izimizi qoymuşuq. Lakin haylar Cənubi Qafqaza köçdükdən sonra başlayan amansız deportasiyalar, soyqırımlar və şimaldan gələn təzyiqlər bizi öz yurdumuzdan didərgin saldı. 44 günlük Vətən müharibəsindən sonra düşmən tapdağından azad edilmiş torpaqlarımızda yeni həyat qurmağa başlayarkən qarşımızda bir müqəddəs vəzifə dayanır: Bu torpaqlara ədaləti geri gətirmək, doğma yurdumuzu soydaşlarımıza qaytarmaq! Bu, xalqımızın tarixi haqqıdır və bunu bərpa etmək bizim şəraf borcumuzdur.**

Tarixə nəzər saldıqda görürük ki, 1918-ci il mayın 28-də keçmiş İrəvan xanlığının və tarixi Azərbaycan torpaqlarının bağrında Ermənistan adlı bir dövlət qurulduqdan sonra burada yaşayan soydaşlarımız öz yurdlarından zaman-zaman deportasiya edildilər. Azərbaycanlılara aid olan tikililər, İrəvan şəhərinin tarixi-memarlıq inciləri, İslam abidələri erməni vandalizminin amansız təhrifinə məruz qaldı. Xüsusilə 1988-1989-cu illərdə 300 minə yaxın azərbaycanlı Ermənistandan zorla çıxarıldı. Etnik təmizləmə siyasəti ilə azərbaycanlılara məxsus yaşayış məntəqələrinin, çayların, göllərin, dağların adları dəyişdirildi, xalqımızın tarixi və maddi-mədəni irsi məqsədli şəkildə silinərək erməniləşdirildi. Bu, sadəcə bir keçmiş deyil - xalqımızın yaddaşında dərin iz buraxan tarixi bir haqsızlıqdır. Hələ İkinci Dünya müharibəsi illərində erməni daşnaq başçılarının "böyük Ermənistan" xülyası uğrunda ikili oyunlar qururdular. Bir tərəfdən, almanların qələbə çalacağına ümid edərək, ona Zaqafqaziyada iki dövlət - erməni və gürcü dövlətlərinin yaradılması təklifini etmiş, bununla da Azərbaycan torpaqlarını ələ keçirmək niyyətində olmuşdular. Digər tərəfdən isə əgər müharibəni Sovet İttifaqı qazansa, Türkiyənin Qars və yaxın ərazilərinin Sovet Ermənistanına birləşdirilməsini planlaşdırırdılar. Bu, erməni rəhbərlərinin məqsədlərinə çatmaq üçün tarix boyunca necə fərqli oyunlar oynadıqlarının bir sübutudur.

Ulu öndər Heydər Əliyev 23 fevral 1994-cü ildə Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutunda çıxış edərək vurğulamışdı ki, "Tarixi faktlara nəzər salsaq, indiki Ermənistan ərazisinin vaxtilə Azərbaycan torpaqları olduğunu xatırlatmalıyıq. Bu yerlər bir zamanlar Azərbaycana məxsus olub, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Tarixə müraciət etməklə görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Ancaq bunu da qeyd edirəm ki, biz Ermənistanın mövcud sərhədlərinə göz dikmirik, onların ərazisinə iddialarımız yoxdur. Eyni zamanda biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik".

Qüdrətli Azərbaycan dövləti soydaşlarımızın doğma yurdlarına qayıdışı məsələsini daim gündəmdə saxlayır. Bu yolda "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" böyük əhəmiyyət daşıyır. Çünki konsepsiya Qərbi Azərbaycandan qovulmuş bütün azərbaycanlıların öz yurdlarına qayıtmaq hüququnun bərpasını və rahat yaşayış şəraitinin təmin olunmasını nəzərdə tutur. Qərbi Azərbaycan İcmasının təsis etdiyi bu konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılan azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri dönüşünü təmin etmək məqsədi daşıyır.

Bu dəyərlər əsasında Qərbi Azərbaycan İcması törədilən etnik, milli və bəşəri cinayətlərin dünyaya çatdırılması istiqamətində intensiv fəaliyyət göstərir. İcmanın beynəlxalq səviyyədə tanınması və haqq səsimizin dünyada eşidilməsi, doğma yurdumuza qayıdışımız üçün son dərəcə əhəmiyyətlidir. Bu, yalnız tarixi ədalətin bərpası deyil, həm də xalqımızın gələcəyi üçün atılan müstəqil bir addımdır.

Prezident İlham Əliyevin bu məsələyə göstərdiyi xüsusi diqqət isə xalqımız üçün yeni bir dövrün başlanğıcıdır. Xüsusilə 2022-ci il dekabrın 24-də, öz doğum günündə Qərbi Azərbaycan ziyalıları ilə görüşərək onların qarşısında mühüm vəzifələr müəyyən etməsi Azərbaycan dövlətinin bu hədəfə nə qədər sadiq olduğunu nümayiş etdirdi. Həmin görüşdə Prezidentimizin irəli sürdüyü fikirlər, soydaşlarımızın ata-baba torpaqlarına qayıtması üçün yeni milli strateji hədəfləri ortaya qoydu və bu yolda dövlətin xalqla birgə olduğunu bir daha vurğuladı. Prezident İlham Əliyevin müdrikliklə söylədiyi "nəyi, necə və nə vaxt etmək lazımdır... bunu mən bilirəm" kəlamı bu gün Qərbi Azərbaycan İcmasının yolunu işıqlandıran rəhbər prinsipdir. "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" soydaşlarımızın mülkiyyət hüquqlarının bərpasını, torpaqlarının onlara qaytarılmasını əhatə edən vacib bir sənəddir. Qərbi Azərbaycan İcması bu qayıdış prosesini təkcə gerçəkləşdirməklə kifayətlənməyəcək, soydaşlarımız doğma yurdlarına döndükdən sonra da onların yanında olacaq. Beynəlxalq təşkilatlarla, xüsusən də BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə əməkdaşlıq edərək, o torpaqlarda sülhyaratma missiyası çərçivəsində soydaşlarımızın təhlükəsiz və ləyiqli yaşayışını təmin etmək yolunda çalışılacaq. Bu konsepsiya sadəcə bir dönüş deyil - doğma torpaqlara, tarixə, haqqa doğru atılan möhtəşəm bir addımdır. Bununla yanaşı, ötən gün Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılıb. Əminliklə qeyd edə bilərik ki, Təşəbbüs Qrupunun yaradılması tarixi torpaqlarından zorla çıxarılmış azərbaycanlıların ata-baba yurdlarına qayıdış arzularını real hüquqi müstəviyə keçirdi. Bu, Qayıdış Konsepsiyasının həyata keçirilməsi yolunda əhəmiyyətli bir mərhələdir - soydaşlarımızın doğma torpaqlarına dönüşü üçün güclü hüquqi zəmin yaradır və uzun illərin həsrətini gerçəkləşdirməyə doğru inamla atılan bir addımdır.

**Nurlan ABDALOV,**
**"Respublika".**